**ƏN YAXŞI ÜMUMTƏHSİL MƏKTƏBİ MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİ QAYDALARI VƏ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNƏ VERİLMİŞ MÜKAFATIN İSTİFADƏ İSTİQAMƏTLƏRİ"NİN VƏ "ƏN YAXŞI MÜƏLLİM MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİ QAYDALARI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 4 sentyabr tarixli 2373 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. "Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi Qaydaları və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə istiqamətləri" təsdiq edilsin (əlavə olunur).

2. "Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

3. Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatları üçün tələb olunan xərclərin ödənilməsi dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına təmin edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 25 fevral 2008-ci il***.

---

**"Ən yaxşı müəllim" müsabiqəsinin keçirilməsi qaydaları**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 4 sentyabr tarixli 2373 nömrəli sərəncamına uyğun olaraq, "Ən yaxşı müəllim" müsabiqəsinin (bundan sonra müsabiqə) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Müsabiqənin keçirilməsində başlıca məqsəd ölkənin ümumi təhsil müəssisələrində çalışan yaradıcı müəllim potensialını üzə çıxarmaq, müasir təlim texnologiyalarının tətbiqi sahəsində uğurlu nəticələri ilə fərqlənən istedadlı müəllimləri müəyyən etmək, novatorluğa və innovasiyalara meyilli müəllimlərə pedaqoji ustalıqlarını nümayiş etdirmək üçün səmərəli şərait yaratmaq, cəmiyyətdə müəllimin statusunu və nüfuzunu yüksəltmək, dövlətin təhsil siyasətinin həyata keçirilməsində müəllimin rolunun getdikcə artmasına nail olmaq və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsində stimullaşdırıcı tədbirlərin mühüm əhəmiyyət daşıdığını geniş ictimaiyyətin diqqətinə çatdırmaqdan ibarətdir.

1.3. Müsabiqə hər tədris ili üzrə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən keçirilir.

1.4. Müsabiqədə əsas iş yeri ümumtəhsil məktəbləri olan, bu Qaydaların 2-ci bölməsi ilə müəyyən edilmiş şərtlərə cavab verən müəllimlər (Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü alan müəllimlər istisna olmaqla) iştirak edə bilərlər.

1.5. Müsabiqənin keçirilməsinə rəhbərlik və nəzarət, tərkibi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən və ictimai əsaslarla fəaliyyət göstərən "Ən yaxşı müəllim" müsabiqəsinin keçirilməsi üzrə Təşkilat komitəsi (bundan sonra Təşkilat komitəsi) tərəfindən həyata keçirilir.

1.6. Təşkilat komitəsinin tərkibinə beynəlxalq və qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri də daxil edilə bilərlər.

1.7. Müsabiqə prosesində mərhələlər üzrə qiymətləndirmə balları Təşkilat komitəsi tərəfindən müəyyən edilir.

1.8. Müsabiqənin keçirilməsi və nəticələri ilə bağlı yaranan mübahisəli məsələlərə baxılması üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən apelyasiya komissiyası yaradılır.

## 2. Müsabiqədə iştirak etmək üçün şərtlər

2.0. Müsabiqədə iştirak etmək istəyən müəllimlər aşağıdakı şərtlərə cavab verməlidirlər:

2.0.1. azı beş il pedaqoji iş stajına malik olması;

2.0.2. ixtisasartırma kurslarını keçməsi, pilot və digər inkişafyönümlü layihələr çərçivəsində öyrədici treninqlərdə iştirakına dair, habelə yeni təlim texnologiyalarının tətbiqi ilə bağlı müvafiq sənəd alması;

2.0.3. təcrübə mübadiləsi məqsədi ilə digər ölkələrdə təşkil edilmiş müvafiq kursda (kurslarda) iştirak etməsi;

2.0.4. dərs demək, məşğələ aparmaq üçün ixtisasartırma tədbirlərinə, seminar və treninqlərə cəlb edilməsi;

2.0.5. pedaqoji mühazirələrdə, elmi-təcrübi konfranslarda məruzələrlə çıxış etməsi, əvvəlki illərdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən elan olunmuş "İlin ən yaxşı müəllimi" müsabiqəsinin respublika mərhələsində mükafata layiq yer (yerlər) tutması;

2.0.6. mətbuatda metodiki məqalələrlə çıxış etməsi, tədris vəsaitlərinin müəllifi olması;

2.0.7. tədris etdiyi ixtisas üzrə şagirdlərinin ali məktəblərə qəbul imtahanlarında uğurlu nəticələr qazanması, fənn olimpiadalarının, müsabiqə, sərgi və yarışların yekun mərhələsində mükafata layiq yerlər tutması;

2.0.8. "Baş müəllim", yaxud "Metodist müəllim" adını alması, dövlət təltiflərinə ("Şöhrət" ordeni, "Tərəqqi" medalı, "Əməkdar müəllim" fəxri adı və s.) layiq görülməsi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunması;

2.0.9. Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya qərarları və Azərbaycan Respublikası təhsil nazirinin əmrlərində, yerli təhsil orqanlarının müvafiq sənədlərində səmərəli fəaliyyəti barədə məlumatların olması, qabaqcıl təcrübəsinin müxtəlif səviyyələrdə öyrənilib yayılması barədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən qərar qəbul edilməsi;

2.0.10. informasiya və kommunikasiya texnologiyalarından istifadə bacarıqlarına malik olması;

2.0.11. ictimai birliklər, fondlar, yerli və beynəlxalq qeyri-hökumət təşkilatları, valideyn-məktəb assosiasiyaları və digər qurumlar tərəfindən aparılan sorğularda həmin müəllim haqqında müsbət mülahizə və rəylərin irəli sürülməsi;

2.0.12. müəllimin müsabiqədə iştirakı üçün əhəmiyyətli olan digər zəruri göstəricilər.

## 3. Müsabiqənin təşkili

3.1. Müsabiqə üç mərhələdə keçirilir.

3.2. Müsabiqənin mərhələlər üzrə keçirilmə müddətləri hər il üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

3.3. Müsabiqədə iştirak etmək istəyən müəllim hər il bu Qaydaların 3.2-ci bəndinə uyğun olaraq müəyyən edilmiş müddətdə Təşkilat komitəsinə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə ilə müraciət edir. Bu Qaydaların 2-ci bölməsində nəzərdə tutulmuş şərtləri təsdiq edən sənədlər (onların surətləri) ərizəyə qoşma kimi əlavə olunur. Ərizə elektron poçt vasitəsilə də göndərilə bilər (office@edu.gov.az).

3.4. Sənədlərin qeydiyyata alınması və ekspertizasının aparılması üçün Təşkilat komitəsi tərəfindən ekspert qrupu (qrupları) yaradılır. Ekspert qrupu sənədlərin ekspertizasını aparır və nəticələri barədə Təşkilat komitəsinə hesabat təqdim edir.

3.5. Ekspertizanın yekununa görə daha çox bal toplamış müəllimlər ekspert qrupunun təqdimatı əsasında Təşkilat komitəsinin qərarı ilə ikinci mərhələyə buraxılırlar.

3.6. Müsabiqənin ikinci mərhələsi bu Qaydaların 3.2-ci bəndinə uyğun olaraq müəyyən edilmiş

müddətdə təşkil edilir. Bu mərhələnin iştirakçıları ümumtəhsil məktəblərində ixtisasları üzrə təklif olunan siniflərdə sınaq dərsləri aparırlar.

3.7. Sınaq dərsləri Təşkilat komitəsi tərəfindən ixtisaslar əhatə olunmaqla, tanınmış alim və metodistlərdən, təcrübəli mütəxəssislərdən, ictimaiyyətin nümayəndələrindən ibarət tərkibdə yaradılmış fənn komissiyaları tərəfindən qiymətləndirilir. Sınaq dərsləri videolentə alınır.

3.8. Sınaq dərslərinin qiymətləndirilməsi prosesində aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

3.8.1. mövzunun tədrisi üçün maraqlı və optimal dərs formasının seçilməsi;

3.8.2. problemin qoyuluşu və həlli prosesinə şagirdlərin fəal cəlb edilməsi, şagirdlərlə həssas ünsiyyətin qurulması və pedaqoji əməkdaşlıq münasibətlərinin yaradılması;

3.8.3. dərsin fəal, interaktiv təlim üsullarının səmərəli tətbiqi şəraitində tədris edilməsi;

3.8.4. tədris olunan mövzunun şagirdlər tərəfindən dərs prosesində mənimsənilmə səviyyəsinin müəyyən edilməsi;

3.8.5. şagirdlərin bütünlüklə qiymətləndirilməsi üçün çevik formalardan istifadə edilməsi.

3.9. Hər bir sınaq dərsi müvafiq fənn komissiyasında müəllimin iştirakı ilə təhlil edilir, ümumi rəy və nəticələr onun nəzərinə çatdırılır. Fənn komissiyaları növbəti mərhələyə təqdim olunan müəllimlər haqqında Təşkilat komitəsinə yekun hesabat hazırlayır.

3.10. Müsabiqənin üçüncü mərhələsi bilavasitə Təşkilat komitəsi tərəfindən həyata keçirilir. Bu mərhələdə iştirakçılar özləri haqqında qısa məlumat verməklə, müasir dövrdə təhsil prosesinin təşkilinin aktual məsələlərinə dair Təşkilat komitəsinin təklif etdiyi mövzu ətrafında 10 dəqiqəlik təqdimatla çıxış edir və verilən sualları cavablandırırlar.

## 4. Müsabiqənin yekunu

4.1. Təşkilat komitəsi tərəfindən zonalar üzrə qaliblərin seçilməsi üçün müəllimlərin say nisbəti nəzərə alınmaqla kvotalar müəyyənləşdirilir.

4.2. Təşkilat komitəsi hər üç mərhələnin nəticələrinə görə müəyyən olunmuş zonalar üzrə kvotalara uyğun olaraq daha çox bal toplamış 100 müəllimi seçir və müsabiqənin yekununu müvafiq aktla rəsmiləşdirir.

4.3. Müsabiqədən müvəffəqiyyətlə keçmiş müəllimlərin siyahısı müsabiqənin yekunlarına dair əsaslandırılmış arayış əlavə edilməklə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edilir.

4.4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi zərurət yarandıqda müsabiqənin keçirilməsi ilə bağlı zəruri sənədləri (məlumatları) Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim etməlidir.

4.5. Hər tədris ili üzrə müsabiqədən müvəffəqiyyətlə keçmiş müəllimlər Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Ən yaxşı müəllim" mükafatı ilə mükafatlandırılırlar.

4.6. "Ən yaxşı müəllim" mükafatı ilə mükafatlandırılmış müəllim mükafatlandırıldığı tədris ilindən

4 il keçdikdən sonra müsabiqədə təkrar iştirak edə bilər.